**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin fəaliyyətinin təmin edilməsi və “Bir sıra mərkəzi icra hakimiyyəti orqanlarının strukturlarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 14 iyul tarixli 1015 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

~~1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyinin əsasında Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti yaradılsın.~~

~~2. Respublika Toxum Müfəttişliyinin, Azərbaycan Seleksiya Nailiyyətlərinin Sınağı və Mühafizəsi üzrə Dövlət Komissiyasının və Respublika Pambıq Toxumuna Nəzarət Stansiyasının əsasında Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidməti yaradılsın.~~

~~3. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidməti Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti adlandırılsın.~~[1]

4. “Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturu” təsdiq edilsin (əlavə olunur).

*5. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Aparatının işçilərinin say həddi 207 ştat vahidi, dövlət aqrar inkişaf mərkəzlərinin işçilərinin say həddi 867 ştat vahidi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi Aparatının işçilərinin say həddi 85 ştat vahidi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi Aparatının işçilərinin say həddi 49 ştat vahidi müəyyən edilsin.*[2]

6. “Bir sıra mərkəzi icra hakimiyyəti orqanlarının strukturlarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 14 iyul tarixli 1015 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010,   7, maddə 657; 2012,   4, maddə 365,   6, maddə 555; 2013,   8, maddə 997) 2-ci hissəsi ləğv edilsin.

7. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

7.1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidmətinin, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmətinin, Baş Dövlət Texniki Nəzarət Müfəttişliyinin əsasnamələrinin layihələrini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.2. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

7.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

7.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

8. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 oktyabr 2014-cü il
761

Azərbaycan Respublikası Prezidentinin
2014-cü il 3 oktyabr tarixli 761 nömrəli Sərəncamı ilə
təsdiq edilmişdir

**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin**

**STRUKTURU**

1. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin aparatı (şöbələr və sektorlar).

2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında *Aqrar Xidmətlər Agentliyi*.[3]

~~3. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti~~.[4]

4. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında *Aqrar Kredit və İnkişaf Agentliyi*.

~~5. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidməti.~~

~~6. *Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Baş Dövlət Texniki Nəzarət Xidməti*~~.[5]

7. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin *dövlət aqrar inkişaf mərkəzləri*.[6]

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 4 aprel 2018-ci il tarixli **3872** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 5 aprel 2018-ci il, 75 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 4, maddə 720**)
2. 2 noyabr 2018-ci il tarixli **640** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 3 noyabr 2018-ci il, 248 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2296**)
3. 21 may 2019-cu il tarixli **1188** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 909**)
4. 5 avqust 2019-cu il tarixli **1378** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 6 avqust 2019-cu il, 170, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1418**)

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 5 avqust 2019-cu il tarixli **1378** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 6 avqust 2019-cu il, 170, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1418**) ilə 1-3-cü hissələr ləğv edilmişdir.

[2] 4 aprel 2018-ci il tarixli **3872** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 5 aprel 2018-ci il, 75 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 4, maddə 720**) ilə 5-ci hissədə "**Baş Dövlət Texniki Nəzarət Müfəttişliyi**" sözləri "**Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Baş Dövlət Texniki Nəzarət Xidməti**" sözləri ilə, "**7**" rəqəmi "**15**" rəqəmləri ilə, "**rayon (şəhər) dövlət texniki nəzarət müfəttişliklərinin**" sözləri "**regional bölmələrin**" sözləri ilə əvəz edilmişdir.

2 noyabr 2018-ci il tarixli **640** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 3 noyabr 2018-ci il, 248 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2296**) ilə 5-ci hissədə "**rayon və şəhər idarələrinin**" sözləri "**dövlət aqrar inkişaf mərkəzlərinin**" sözləri ilə əvəz edilmişdir.

21 may 2019-cu il tarixli **1188** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 909**) ilə 5-ci hissəsində və həmin Sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturu"nun 4-cü hissəsində "**Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti** " sözləri "**Aqrar Kredit və İnkişaf Agentliyi**" sözləri ilə əvəz edilmişdir.

5 avqust 2019-cu il tarixli **1378** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 6 avqust 2019-cu il, 170, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1418**) ilə 5-ci hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~5. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi aparatının işçilərinin say həddi 215 ştat vahidi, *dövlət aqrar inkişaf mərkəzlərinin* işçilərinin say həddi 780 ştat vahidi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti aparatının işçilərinin say həddi 36 ştat vahidi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti aparatının işçilərinin say həddi 26 ştat vahidi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında *Aqrar Kredit və İnkişaf Agentliyi* aparatının işçilərinin say həddi 40 ştat vahidi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidməti aparatının işçilərinin say həddi 24 ştat vahidi, *Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Baş Dövlət Texniki Nəzarət Xidməti* aparatının işçilərinin say həddi *15* ştat vahidi, onun tabeliyində olan *regional bölmələrin* işçilərinin say həddi 87 ştat vahidi müəyyən edilsin.~~

[3] 5 avqust 2019-cu il tarixli **1378** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 6 avqust 2019-cu il, 170, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1418**) ilə "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturu"nun 2-ci hissəsində "**Dövlət Baytarlıq Nəzarəti Xidməti**" sözləri "**Aqrar Xidmətlər Agentliyi**" sözləri ilə əvəz edilmişdir.

[4] 5 avqust 2019-cu il tarixli **1378** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 6 avqust 2019-cu il, 170, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1418**) ilə "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturu"nun 3-cü, 5-ci və 6-cı hissələri ləğv edilmişdir.

[5] 4 aprel 2018-ci il tarixli **3872** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 5 aprel 2018-ci il, 75 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 4, maddə 720**) ilə "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturu"nun 6-cı hissəsində "**Baş Dövlət Texniki Nəzarət Müfəttişliyi**" sözləri "**Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Baş Dövlət Texniki Nəzarət Xidməti**" sözləri ilə əvəz edilmişdir.

[6] 2 noyabr 2018-ci il tarixli **640** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 3 noyabr 2018-ci il, 248 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2296**) ilə "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturu"nun 7-ci hissəsində "**rayon və şəhər idarələri**" sözləri "**dövlət aqrar inkişaf mərkəzləri**" sözləri ilə əvəz edilmişdir.